**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI**

**Bakı şəhəri** **№285/3** **31 yanvar 2017-ci il**

**"Auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin nəticələrinə dair Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının yanında Keyfiyyətə nəzarət komitəsinə hesabat barədə"**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 3.2-ci "Auditor fəaliyyətinə kənar nəzarətin təmin edilməsi üçün müvafiq hüquqi və institusional tədbirlərin davam etdirilməsi" bəndinin 3.2.1-ci "Keyfiyyətə nəzarətə dair iş sənədlərinin və müvafiq cədvəllərin hazırlanması və təqdim edilməsi" və 3.2.2-ci "Keyfiyyətə nəzarətə dair hesabat formasının hazırlanması və təqdim edilməsi" yarımbəndlərinə uyğun olaraq "Auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin nəticələrinə dair Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının yanında Keyfiyyətə nəzarət komitəsinə hesabat" formasının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin nəticələrinə dair Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının yanında Keyfiyyətə nəzarət komitəsinə hesabat"ın forması təsdiq edilsin (əlavə olunur);
2. Keyfiyyətə nəzarət komitəsinə və Auditin keyfiyyətinə nəzarət şöbəsinə tapşırılsın ki, 2017-ci il ərzində keçiriləcək auditor xidmətinin keyfiyyətinə kənar nəzarət işini "Auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin nəticələrinə dair Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının yanında Keyfiyyətə nəzarət komitəsinə hesabat"a uyğun olaraq təşkil və təmin etsinlər;
3. Auditorlar Palatası Şurasının 2010-cu il 26 avqust tarixli 210/5 saylı qərarı ilə təsdiq edilmiş "Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətlərinin, onların apardıqları auditlərin keyfiyyətinin audit standartlarına və mövcud qanunvericilik aktlarına uyğunluğunun yoxlanılmasına dair hesabat formasının tərtib edilməsi barədə Qayda" öz qüvvəsini itirmiş hesab edilsin.
4. Bu qərarın mətninin və hesabatın formasının Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**